# Bir salamat binanın belə qalmadığı Füzulinin artıq yeni növrağı başlayıb...

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu il oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar. Dövlətimizin başçısı yerli sakinlərlə görüşü zamanı İkinci Qarabağ müharibəsində Füzuli rayonunun azad olunmasının əhəmiyyəti, buradakı hərbi əməliyyatlar zamanı əsgər və zabitlərimizin nümayiş etdirdikləri qeyri-adi şücaətlər, eyni zamanda ermənilərin vandalcasına dağıtdığı Füzuli şəhərinin və onun kəndlərinin hazırda bərpası və yenidən qurulması istiqamətində görülən və görüləcək mühüm işlərdən danışmışdır.***



Möhtərəm Prezidentin dilindən səslənən olduqca dəyərli fikir və mülahizələr ölkə ictimaiyyətində, eləcə də Füzuli sakinləri arasında dərin razılıq hissi doğurubdur. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi 4 saylı rabitə xidmətləri mərkəzinin mühəndisi, təcrübəli rabitə işçisi, əslən Füzuli rayonunun Əhmədalılar kəndindən olan Rafiq Yusifov bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:

--Mən möhtərəm Prezidentin və Azərbaycanın birinci xanımının Füzuliyə səfərini böyük maraqla izləmişəm. Dövlətimizin başçısı səfər zamanı Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni “ağıllı kənd”in və bir çox digər layihələrin təməlini qoyub. Sevinirəm ki, bu və başqa vacib layihələr icra olunandan sonra burada yüzlərlə, minlərlə ailə işləyəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar. Dövlətimizin başçısı görüşdə parlaq və dərin məzmunlu çıxışında demişdir: “Düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusu Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad edib, Azərbaycan bayrağı qaldırılıb və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövləti bu ərazilərdə öz suverenliyini təmin etdi. Bu, tarixi hadisədir. Əminəm ki, 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq”.

Qeyd etmək lazımdır ki, Füzuli uğrunda çox şiddətli döyüşlər gedibdir. Düşmən burada ciddi müqavimət göstərib, buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını uğurla yerinə yerinə yetiribdir. Dövlətimizin başçısının bildirdiyi kimi, Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Çünki Füzuli ordumuzun nəzarətinə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açılıb.

Füzuli ən çox dağıntılara məruz qalmış rayonlarımızdandır. Erməni vandalları Füzuli şəhərini tamamilə yerlə-yeksan ediblər. Azərbaycan xalqı yaxşı xatırlayır ki, Füzuli azad olunandan sonra orada bir salamat bina tapılmayıb ki, Milli Ordunun əsgərləri orada bayrağımızı sancsınlar. Bayrağımız hərbi hissənin həyətində dirəkdə qaldırılmışdı. Füzuliyə gələn hər bir insan erməni vəhşiliyini öz gözləri ilə görür və gördüklərindən dəhşətə gəlir.

Füzuli torpağı çox bərəkətlidir. Hazırda Azərbaycan dövləti və xalqımız əl-ələ verib Füzulinin bərpası ilə məşğuldur. Eyni zamanda, Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır. Bütün bunlar bizi, Füzuli sakinlərini çox sevindirir.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti Füzulinin bərpası və yenidənqurulması ilə bağlı işlərdən danışarkən demişdir: “Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir”.

Prezident İlham Əliyev görüşdə həmçinin bildirib ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixdə qalıbdır. Azərbaycan faktiki olaraq regionda yeni reallıqlar yaradıbdır. Azərbaycan dövləti Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərqərar oluunmasında maraqlıdır. Bu, bütün xalqların, o cümlədən ermənilərin də xeyrinədir. Ümid etmək istərdim ki, Ermənistan rəhbərliyi də bunu gec-tez başa düşsün.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 20 oktyabr.- S.4.